Ədalət 2019.- 26 oktyabr.- S.12.

# İZİ GÖRÜNƏN İNSANLAR

**"İnsanda hər şey gözəl olmalıdır: həm üzü, həm paltarı, həm qəlbi, həm də fikri"**

**A.P.Çexov**

Son vaxtlar "Ədalət" qəzetində Əlövsət Bəşirlinin 80-ci illərdə Cəlilabadda işləyərkən iş yoldaşı Füzuli Səmədova həsr etdiyi "Mahir təşkilatçı, səmimi insan, dəyərli dost" məqaləsini, xoş ovqatlı xatirələrini oxudum və bir anlığa o illəri xəyalımda canlandırdım. Məqalədə Əlövsət müəllim o vaxtlar Cəlilabad rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmiş mərhum İ.M.Qurbanovun əmək fəaliyyətindən, qurub-yaratmaq həvəsindən, bacarıqlı, rəhbər kimi nüfuzundan, el-obaya dayaq olmasından, kasıblara əl tutmasından, xasiyyətinin isə sərt, özünün son dərəcə tələbkar olmasından danışır, Cəlilabadın abad və müasir şəhərə çevrilməsində, üzümçülüyün rekord səviyyəyə qaldırılmasında onun müstəsna xidmətlərini yada salır, rayonda gedən tikinti-abadlıq işlərinin səmərəli təşkilində raykomun təlimatçısı F.Səmədovun da təşkilatçılığını yüksək qiymətləndirir.

O zaman Ə.Bəşirli Cəlilabad rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsində işləyirdi və rayon Partiya Komitəsi bürosunun qərarı ilə təsərrüfat, tikinti-abadlıq işlərinin gedişinə nəzarət də ona tapşırılmışdı. Ə.Bəşirli özünün bacarığı, səriştəsi ilə ona həvalə olunmuş məsuliyyətli işin öhdəsindən layiqincə gəlirdi. Rayonda mütəmadi olaraq "üzümçü", "sağıcı", "taxılçı" günləri mədəni-maarif işçiləri ilə görüşlər keçirilirdi və hamı təsərrüfat işlərinin gedişində köməyə cəlb olunurdu. 80-ci illər Cəlilabadın və cəlilabadlıların həyatında dönüş, tərəqqi illəri kimi qalmışdı. Mən də o illərdə ideoloji şöbənin təlimatçısı kimi bu proseslərdən kənarda deyildim.

80-ci illər Cəlilabadın tarixində inkişaf dövrü kimi yaddaşlarda qalmış və bu inkişaf İ.M.Qurbanovun, Ə.Bəşirlinin zəhmətinin nəticəsi kimi qiymətləndirilir.

İ.M.Qurbanov Cəlilabadı respublikaya, həmçinin keçmiş Sovet İttifaqına tanıtdırdı, Cəlilabadda abadlıq işləri geniş vüsət aldı, yaşayış binaları, ictimai evlər tikilib əhalinin istifadəsinə verildi, kəndlərdə arabalar minik maşınları ilə əvəz olundu. Bu inkişafın əldə olunmasında İ.M.Qurbanovun, Ə.Bəşirlinin təlimatçısı kimi F.Səmədovun və digərlərinin zəhməti danılmazdır. 80-ci illəri yada salarkən iftixarla deyirəm ki, nə yaxşı ki, bu insanlarla mən də bir təşkilatda işləmişəm, onların təcrübəsindən bəhrələnmişəm. Ə.Bəşirli hər bir cəlilabadlıya dost, sirdaş olub və indi də dost, sirdaş kimi yad olunur. O dövrdə İ.M.Qurbanovun tələbləri, sərtliyi qarşısında yalnız Ə.Bəşirli kimi həyatın acı sınaqlarından çıxmış yenilməz insanlar dayana bilərdi.



Artıq Sovet İttifaqı idarə olunmurdu, hamının amalı sərvət yığmağa qarışmışdı. Mənə və mənim kimilərə cəmiyyət arasında fərasətsiz insanlar kimi baxılırdı. Dövlət idarə olunmurdu, özbaşınalıq hökm sürürdü. İdarə, müəssisə rəhbərləri yaranmış vəziyyətdən özləri üçün səmərəli istifadə edirdilər.

Təəssüflə deyirəm ki, 80-ci illərdən sonra Cəlilabada gələn birinci katiblər və ya icra başçıları deyə bilərlər ki, yalnız Cəlilabadda işləmişəm. Necə və nə işlər görmüşəm deməyə onların sözü və haqqı yoxdur. Onlar 80-ci illərdə İ.M.Qurbanovun tikdiyi obyektləri dağıdıb satmaqla özlərinə sərvət yığdılar, "dərə xəlvət, tülkü bəy" deyiminə uyğun iş gördülər.

Ağac meyvəsi, insan əməlləri ilə tanınır. Həyatın mənası təkcə yaşamaqda deyil, eyni zamanda nə üçün yaşamaqdadır. İnsan ömrünü vaxt ilə deyil, əməllərlə qiymətləndirmək daha düzgün və ədalətli olardı. Hər bir insan öz işi, əməli ilə tanınır, özündən sonra yaddaşlarda iz qoyur. Belə insanların adları xalqın dilindən düşmür, onların həyat və fəaliyyəti gələcək nəsillərə örnək kimi təqdim olunur. Bu səbəbdən dünyasını dəyişmiş İ.M.Qurbanova rəhmət, nurlu və parlaq siması ilə hər bir cəlilabadlının qəlbində yaşayan Ə.Bəşirliyə dualar oxunur, böyük Yaradandan ona can sağlığı arzu olunur. Ə.Bəşirli bəlkə də bilmir ki, onu Cəlilabadda sevməyən ola bilməz. Elin hörmətini, sevgisini qazanmaq ən böyük xoşbəxtlikdir.

İstərdim ki, uca bir səslə qışqırıb deyim:

- Əlövsət müəllim, siz xoşbəxt insansınız ki, bu hörməti qazana bilmisiniz!

**Xoşbəxt o kəsdir ki, ömür yükünü,**
**Sonadək fəxrlə daşıya bilir.**
**Xoşbəxt o kəsdir ki, hər an, hər zaman,**
**Hamının qəlbində yaşaya bilir.**

80-ci illərdən xeyli vaxt keçsə də, Əlövsət Bəşirli Cəlilabadda Bəşirli kimi yox, Bəşirov kimi yad olunur, ona saygı və hörmət bildirilir. Cəlilabadda birinci və ikinci katiblər çox olub, ancaq İ.M.Qurbanov faktdır. Onlar nə yad olunur, nə də ki, xatırlanır.

Məlum bir deyim var: "Heç nə yaddan çıxmır, heç nə unudulmur". Hər kəsin vicdanı, onun qəlbinin səsi həyat meyarıdır.

80-ci illərdəki Cəlilabadda gedən quruculuq-abadlıq işləri indi respublikamızın bölgələrində davam etdirilir.

Bu kiçik yazıda Cəlilabadda 80-ci illərdə qurub yaradan xeyirxah insanlardan danışdım. Qurub-yaratmaq arzusu ilə qəlbi döyünən insanlara cəlilabadlıların dostu, sevimlisi, güvənc yeri, qəlblərin sönməyən mayakı Əlövsət müəllim Bəşirova cəlilabadlılar adından təşəkkürümü bildirib ona uzun ömür, can sağlığı arzu edirəm.

**- Əlövsət müəllim, eşq olsun sizə, sizin kimi qurub-yaradanlara, nurlu simaları unudulmayan, qəlblərdə yaşayan insanlara! Siz fəxrlə deyə bilərsiniz ki, mən Cəlilabadda işləmişəm! Buna sizin haqqınız var!..**

**Ələddin ƏLİ**
**Cəlilabad, Hacıcavad**